**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏHMƏDOVA ARZU NƏSİMİ QIZI**

# AZƏRBAYCAN TELEVİZİYA MƏKANININ FORMALAŞMASI VƏ İNKİŞAF PROSESİ (TELESISTEMIN TƏKAMÜL YOLUNA BAXIŞ)

**5720.01 – Jurnalistika**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Televiziya və Radio Jurnalistikası kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: **Yalçın Mustafa oğlu Əlizadə**
*filologiya üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Nəsir Abbas oğlu Əhmədli**
*filologiya üzrə elmlər doktoru, professor*

**Xatirə İsam qızı Hüseynova**
*filologiya üzrə fəlsəfə doktoru*

**Aparıcı müəssisə:** **Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun Mətbuat tarixi və publisistika şöbəsi**

Müdafiə «_28___» ____04_______ 2017-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2017-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının**
**elmi katibi, filologiya üzrə**
**elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Kütləvi informasiya vasitələri bütövlükdə, televiziya isə xüsusi olaraq cəmiyyətin, sosiumun inkişafında, insanın kamilləşməsində, ictimai rəyin formalaşmasında, demokratik dəyərlərin səmərəli şəkildə həyata keçirilməsində, milli-mənəvi dəyərlərin qorunmasında və ən əsası maarifləndirmək kimi fundamental funksiyaların yerinə yetirilməsində misilsiz rol oynayır. Bütün dünyada olduğu kimi, Azərbaycan media sistemində də televiziyanın ayrıca yeri var. Azərbaycanda televiziya artıq özünün formalaşma dövrünü başa vurmuş, indi təkmilləşmə, peşəkarlığın yüksəlməsi, müasir dünya telestandartlarının səviyyəsinə çatması, tipoloji sisteminin tam formalaşması kimi fundamental vəzifələri gerçəkləşdirmək prosesini yaşayır. Sovet ideoloji-təbliğat televiziyası statusundan uzaqlaşaraq azad, müstəqil, mükəmməl qanunvericilik bazasına söykənən, beynəlxalq yaradıcılıq prinsiplərini mənimsəyən Azərbaycan televiziya məkanı bu gün özünün tamamilə yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ümummilli lider H.Əliyev bu inkişafın səviyyəsinə diqqəti çəkərək onu belə qiymətləndirmişdir: «Azərbaycan televiziya və radiosu zəngin, şərəfli inkişaf yolu keçərək xalqımızın yüksək əxlaqi dəyərlərinin, ictimai-siyasi ideallarının, mədəniyyətinin, arzu və istəklərinin ifadəçisinə çevrilmişdir. Bu gün milli televiziya və radiomuz, sözün əsl mənasında, xalqın tribunasıdır».[1] Respublikamızda söz, fikir azadlığının, demokratik təsisatların inkişafına yaradılan əlverişli şəraitin bəhrəsi kimi meydana çıxan özəl telekanallar, onların həm kəmiyyət, həm də keyfiyyət artımı perspektivə daha böyük ümidlə baxmağa əsas verir. Televiziya sisteminin formalaşmasına Azərbaycan dövlətinin göstərdiyi qayğının nəticəsi kimi yaradılan ictimai televiziyanın açılış günündə Azərbaycan Prezidenti İ.Əliyev bu televiziyanın meydana gəlməsini dünya təcrübəsinin ölkəmizdə uğurla tətbiq olunduğunu göstərən önəmli bir hadisə kimi dəyərləndirmiş, müstəqil media nümunəsi olan ictimai TV timsalında Azərbaycanda müstəqil informasiya vasitələrinə «böyük ehtiyac olduğunu» bildirmiş, «normal, hüquqi, demokratik dövlətin qurulması işində medianın çox böyük əhəmiyyətini»[2] vurğulamış və bu sırada yeni yaradılan televiziyanın cəmiyyət həyatına, demokratiyanın inkişafına dəstək olacağına əminlik ifadə etmişdir. Bütün bunlar televiziyanın ictimai institut rolunun nə dərəcədə

---

[1] Heydər Əliyev və mətbuat, 4 cilddə, I cild, Bakı: Nurlar, 2003, s. 494.
[2] Əliyev İ. İqtibaslar və təhlil. Bakı: «Azərbaycan» nəşriyyatı, 2006, s. 52.

böyük olduğunu bir daha sübut edir və belə media qurumunun bütün yaradıcılıq, texniki qanunvericilik, təşkilatlanma, kadr hazırlığı, tipologiya istiqamətlərindən təhlilini şərtləndirir.

Azərbaycan teleməkanı teletexnikanın ən müasir nailiyyətlərindən bəhrələnməklə öz imkanlarını genişləndirməkdədir. Televiziya nəzəriyyəsi ilə məşğul olan mütəxəssislərdən tutmuş adi seyrçiyə qədər hər kəsin gəldiyi qənaət bundan ibarətdir ki, televiziya KİV sistemində hələlik ən aparıcı və auditoriyası daha böyük olan informasiya vasitəsidir. Belə bir demokratiya institutunun müxtəlif rakurslardan öyrənilməsi, təhlil edilməsi vacib məsələlərdən biridir. «Azərbaycan televiziya məkanının formalaşması və inkişaf prosesi» mövzusunun da aktuallığını bu amil şərtləndirir.

Uzun müddət Sovet Mərkəzi Televiziyasının ideoloji prinsiplərinə tabe olmuş, sərt senzura şəraitində fəaliyyət göstərmiş Azərbaycan televiziyası nə qədər sıxışdırılsa da, bu informasiya vasitəsinin inkişafına nə qədər qısqanclıqla yanaşılsa da, elə həmin dövrdə xeyli uğurlara imza atmışdır. Bütün bunlarla belə, postsovet məkanında, o cümlədən Azərbaycanda televiziyanın sürətli inkişafı müstəqillik faktı ilə bağlıdır. Bu dövrün inkişaf faktını dərindən öyrənmək və dərk etmək üçün ona postmodernist bucaqdan baxılmalıdır. Mövzuya bu yanaşmadan diqqət etdikdə müasir Azərbaycan televiziyasının hansı yöndə inkişaf etdiyini, KİV sistemində öz yerini necə dəqiqləşdirdiyini, inkişaf dinamikasını, bu sahədə özəl sektorun inkişaf qanunauyğunluqlarını, ictimai-siyasi palitrasını, proqram siyasətini, peşəkarlıq axtarışlarını öyrənmək yeni inkişaf mərhələsinə ciddi kömək faktı kimi qəbul edilə bilər ki, bu da tədqiqatın aktuallığını bir daha sübut edir. Digər tərəfdən, ölkəmizdə bu inkişafın təsiri ilə formalaşmış televiziya sistemi bütöv bir tipoloji faktor kimi, habelə ayrı-ayrılıqda özünəməxsus xarakterinin meydana qoyduğu fəaliyyət faktı ilə tədqiqata cəlb edilməlidir. Televiziya sisteminin həm bütöv kontekstdə, həm də ayrılıqda inkişaf prosesini izləmək, onun nəzəri və praktik istiqamətlərini təhlil etmək mövzunun aktuallığını şərtləndirən faktlar sırasındadır.

**Tədqiqatın obyekti və predmeti.** Araşdırmanın əsas obyekti Azərbaycan teleməkanı, onun çoxşaxəli inkişaf dinamikasıdır. Bu xətti izləmək və ümumiləşdirmək üçün Azərbaycanda televiziyanın ilkin fəaliyyət çağı kimi ilk növbədə milli televiziyaya müraciət edilir. Azərbaycanın müstəqillik əldə etməsi, bazar münasibətlərinə keçilməsi, senzuranın ləğv edilməsi, KİV üzərində dövlət və partiya monopoliyasının aradan qaldırılması özəl televiziyaların yaradılmasını şərtləndirir və onları da tədqiqatın obyektinə çevirir. Azərbaycanın demokratik dövlət quruculuğu şəraitində

ictimai televiziya tipinin ölkədə formalaşması faktı bu televiziyanın da araşdırmaya cəlb olunmasını şərtləndirir. Sistemin formalaşması fonunda Azərbaycanda televiziyanın yaranması, onun müstəqilliyə keçid mərhələsi, bu mərhələdə TV ətrafında qanunvericilik bazasının formalaşdırılması və sonrakı inkişafı, bu sistemin fəaliyyət prinsipləri və s. kimi məsələlər tədqiqatın predmetidir. İndiyə qədər aparılan fundamental tədqiqat əsərlərinə və televiziyanın müasir fəaliyyət konsepsiyasına istinadən milli teleməkanın tamamlanmış obrazının yaradılması kimi mühüm bir öhdəliyə əməl olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Azərbaycanda televiziya sisteminin formalaşması və inkişaf prosesini izləmək, bu prosesin gələcək inkişafa müsbət təsirinin nəzəri və praktik istiqamətlərini ortaya qoymaqdır. Məqsədə çatmaq üçün televiziya sisteminin elmi mahiyyəti açılır, bu sistemin formalaşma mexanizmi təhlil edilir. Həm də televiziya sistemi ayrılıqda deyil, kütləvi informasiya vasitələri kontekstində araşdırılır. Başqa bir məqsəd müasir milli telesistemin dünya təcrübəsi çərçivəsində inkişaf və fəaliyyət qanunauyğunluqlarını öyrənməkdən ibarətdir. Müasir inkişafa təkan verən peşə təhsili sistemi, beynəlxalq təcrübə, rəqabət şəraiti, yeni yaradıcılıq prinsiplərinin tətbiqi kimi faktların təhlili qarşıya qoyulan məqsədə nail olmağa imkan yaradır.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələr yerinə yetirilmişdir:

- Azərbaycanda televiziya sisteminin formalaşma mərhələləri izlənilmiş;
- Sovet dövrü ideoloji televiziyasından müstəqillik dövrü ictimai, institual, beynəlxalq təcrübəyə istiqamətlənən televiziya modelinə keçid mərhələsini şərtləndirən amillər təhlil edilmiş;
- Müstəqillik dövründə Azərbaycan televiziya sisteminin inkişaf dinamikasının ümumi qanunauyğunluqları aşkarlanmış;
- Televiziyanın özəl sektorunun fəaliyyət prinsiplərinin nəzəri aspektləri açıqlanmış;
- Peşəkarlığın səviyyəsini yüksəltmək məqsədilə aparılan yaradıcılıq axtarışları və onların uğurlu, uğursuz nəticələri təhlil edilmişdir.

**Mövzunun işlənmə dərəcəsi.** Azərbaycanda televiziyanın bir sistem kimi formalaşması və onun inkişaf prosesi kompleks şəkildə elmi araşdırmaya ilk dəfə cəlb edilir. Lakin bu mövzu çoxşaxəli və çoxistiqamətli mahiyyət kəsb etdiyinə görə onun araşdırılmasında bu istiqamətlərin ayrı-ayrılıqda tədqiqi ilə bağlı bir sıra elmi-tədqiqat əsərləri köməkçi rolunu oynayır. Bu araşdırmaların əksəriyyətində televiziyanın bütövlükdə və

Azərbaycan televiziyasının ayrılıqda bəzi komponentləri öz əksini tapmışdır. Azərbaycan televiziyasının inkişaf mərhələsi uzun müddət SSRİ-də TV-nin meydana gəlməsi və formalaşması ilə birbaşa bağlı olmuşdur. Ona görə də biz postsovet məkanında əvvəlcə televiziya ətrafında ilk araşdırmaların sovet alimlərinə məxsus olduğunu qeyd etməliyik. Sovet dövrü televiziya araşdırmaları ilk olaraq azərbaycanlı alim, Moskva Dövlət Universitetində uzun müddət televiziya və radio jurnalistikası kafedrasına rəhbərlik etmiş professor Ə.Bağırovun adı ilə bağlıdır. Onun İ.Kartsevlə birgə yazdığı «Телевидение. XX век»[1] əsərində televiziyanın yaradıcılıq xüsusiyyətləri açılmış, «mavi ekran» jurnalistika və incəsənətin müştərək yaradıcılıq faktı kimi təqdim edilmişdir. M.Qleyzer, A.Yurovski, R.Boretski, Roberts Barri, N.Biryukov, Y.Boqomolov, S.Muratov[2] və b.-nın əsərlərində televiziyanın bir sıra problemləri əksini tapmışdır.

Azərbaycan elmi-nəzəri jurnalistikasında da televiziyanın müxtəlif aspektləri araşdırma obyekti olmuşdur. Bu sırada, F.Mehdinin, Y.Əlizadənin, Q.Məhərrəmlinin, N.Əhmədlinin, E.Quliyevin, C.Məmmədlinin, A.Dadaşovun, E.Əlibəylinin[3] və b.-nın televiziya haqqında əsərlərini qeyd etmək olar. Əlbəttə, televiziya fəaliyyətə başlayandan bir az sonra onun ətrafında maraqlı dissertasiyalar da işlənmişdir. Bu sırada A.Kərimovanın, X.Hüseynovanın, Q.Cavadlının monoqrafik əsərlərin adlarını çəkmək olar. Bunların hər birində sistem kimi televiziya jurnalistikasının bir sıra problemləri xeyli dərəcədə özünün elmi-nəzəri həllini tapmışdır.

**Tədqiqatın elmi yeniliyi** Azərbaycanda telejurnalistika araşdırmaları sahəsində bu mövzunun ilk dəfə kompleks şəkildə tədqiqi ilə izah olunur.

---

[1] Багиров А. , Картсев И. Телевидение XX век. М.: Искусство, 1968, s. 46.
[2] Глейзер М. Радио и телевидение в СССР. М.: Искусство, 1968; Юровский А., Борецкий Р. Основы телевизионной журналистики. М.: Изд-во МГУ, 1996; Робертс Э.Б. Телевизионная драматургия. М.: Искусство, 1967; Багиров А. Место телевидения в системе средств массовой информации и пропоганды М.: МГУ, 1976; Бирюков Н. Буржуазное телевидение и его доктрины. М.: Мысль, 1977; Богомолов Ю. Хроника пикирующего телевидения. М.: Изд-во «МИК», 2004; Муратов С. А. Телевизионное обшение в кадре и за кадром. М.: «Аспект-пресс», 2003 və s.
[3] Mehdi F. Televiziya jurnalistikası // Jurnalistika məsələləri. Bakı: Maarif, 1972, s. 268-285; Əlizadə Y. Radiojurnalistikanın əsasları. Bakı, 1991; Məhərrəmli Q. Televiziya dili. Bakı: Elm, 2002; Əhmədli N. Milli televiziya konsepsiyası çağdaş ictimai-siyasi durum kontekstində // M.Ə.Rəsulzadə adına BDU-nun 75 illik yubileyinə həsr olunmuş elmi konfransın materialları. Bakı, 1994, s. 159; Quliyev E. Televiziya: nəzəriyyə və inkişaf meylləri. Bakı: İşıq, 2004, s. 259; Məmmədli C. Müasir jurnalistika. Bakı, 2003; Dadaşov A. Televiziya tamaşalarının həlli // «Qobustan» dərgisi, 2000, №3, s.87; Əlibəyli E. Televiziya nəzəriyyəsinin əsasları. Bakı: Elm, 2001.

Dissertasiyada ilk dəfə olaraq:

- Televiziya sistemi anlayışının elmi təhlili verilir və Azərbaycanda bu sistemi formalaşdıran ictimai mühit ətrafında təhlillər aparılır;
- Peşəkarlıq, texniki təchizat, təşkilatlanma və kadrları hazırlığı, jurnalistika təhsili, tipologiya, bu komponentlərin birinin digərinə təsiri, bu təsirin meydana çıxartdığı inkişaf prosesi təhlil edilir;
- Araşdırılan mövzu ətrafında indiyədək yaradılmış elmi-nəzəri ədəbiyyat qiymətləndirilir və bu ədəbiyyat sistemində əlimizdəki tədqiqatın yeri müəyyənləşdirilir;
- Azərbaycan televiziyasının sovet ideoloji xarakterinin yeni dünya düzəninə və beynəlxalq standartlara uyğun yaradıcılıq prosesinə transformasiyasının elmi əsaslarına ilk dəfə ayrıca diqqət yetirilir;
- Müstəqillik dövrü Azərbaycan televiziya sisteminin inkişaf dinamikasına elmi baxışın nəticələri araşdırılır;
- Televiziyada peşəkarlıq problemlərinin və axtarışlarının təhlili aparılır.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat zamanı jurnalistika elminin milli ənənələri müstəvisində və televiziya nəzəriyyəsinin ümumi qanunauyğunluqları kontekstində yanaşma metodu əsas götürülmüşdür. Tarixi-müqayisəli metod Azərbaycan televiziya sisteminin formalaşma və inkişaf problemini daha səmərəli izləməyə imkan yaratmışdır. Azərbaycanın ictimai-siyasi mühiti və bu mühitin yaratdığı münbit şəraitdə meydana gələn televiziya sistemi ilə bağlı nəzəri konsepsiyalara, mötəbər elmi-nəzəri mənbələrə tədqiqatda geniş yer verilir.

**Tədqiqatın elmi-praktik əhəmiyyəti.** Televiziya jurnalistikası bütün dünyada, eləcə də Azərbaycanda cavan sahə olduğu üçün bu istiqamətdə aparılan hər bir tədqiqat işi həm elmi, həm də praktik əhəmiyyət kəsb edir.

Araşdırmanın elmi əhəmiyyəti onun jurnalistika fakültələrində tədris olunan «Telejurnalistikanın nəzəriyyəsi və təcrübəsi» kursunun əhatə dairəsinin genişləndirməsi, magistr pilləsinin seçmə fənn kimi əlavə olunması, telejurnalistika nəzəriyyəsində bu sahədə olan boşluğu müəyyən qədər doldurması ilə qiymətləndirilə bilər.

Dissertasiyanın praktik əhəmiyyəti isə bundan ibarətdir ki, o, televiziya jurnalistlərinin yaradıcılıq imkanlarını genişləndirməklə onların peşəkarlıq axtarışlarını zənginləşdirməyə xidmət edir.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin Televiziya və Radio Jurnalistikası kafedrasında yerinə yetirilmişdir. Araşdırmanın əsas müddəaları və nəticələri bir sıra konfranslarda elmi ictimaiyyətə təqdim olunmuş, müxtəlif nüfuzlu elmi

jurnallarda dərc olunmuş məqalələrdə və tezislərdə əksini tapmışdır.

**Tədqiqatın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə olunmuş ədəbiyyatın, elmi-nəzəri mənbələrin siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"İşin ümumi səciyyəsi"**ndə mövzunun aktuallığı əsaslandırılmış və elmi yeniliyi şərh edilmiş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, nəzəri və praktik əhəmiyyətindən, tədqiqat zamanı istifadə olunan metod və mənbələrdən bəhs olunmuş, işin aprobasiya və quruluşu barədə məlumat verilmişdir.

Dissertasiyanın I fəsli **"Azərbaycanda televiziya sisteminin təşəkkülü və formalaşması tarixindən"** adlanır.

"**Azərbaycanda KİV-in ümumi inkişaf qanunauyğunluqları"** adlanan birinci yarımfəsildə KİV sisteminin formalaşmasına qısa ekskurs aparılmışdır. Hər bir xalqın inkişaf tarixində onun mediası mühüm rol oynayır. Dünyanın əksər ölkələrində, o cümlədən Azərbaycanda KİV, əsasən, əhalinin maarifləndirilməsi məqsədilə yaradılmış, bu prosesdə zaman-zaman qəzet və jurnallar önəmli rol oynamış, radio və televiziya yarandıqdan sonra onlar uzun illərdən bəri bir kütləvi təsir vasitəsi şəklində fəaliyyət göstərməkdədir.

Kütləvi informasiya vasitələrinin əsas funksiyalarından biri kimi maarifçilik ön planda durur. 1875-ci ildə H.Zərdabinin ərsəyə gətirdiyi «Əkinçi» qəzetinin timsalında onun naşiri mətbuata kütləvi informasiya vasitəsi, maarifçiliyin əsası, ictimai-siyasi şüurun formalaşması faktı kimi yanaşdı.[1] «H.Zərdabi bu təməli qoydu və Azərbaycanda mətbuat işi intişar tapdı. H.Zərdabinin işini və ideyalarını XIX əsrdə «Ziya», «Ziyayi-Qafqaziyyə» və «Kəşkül» kimi mətbuat orqanları, XX əsrin əvvəllərində mollanəsrəddinçi və füyuzatçı jurnalistlər davam etdirdilər».[2] Mətbuatımızın ikinci inkişaf mərhələsi 1905-1907-ci illər rus inqilabı illərindən başlanır. Bu dövrü «Azərbaycan jurnalistikasının intibah dövrü adlandırmaq olar».[3] 1900-1910-cu illər Azərbaycan mətbuatı senzura qadağaları şəraitində olsa belə, milli istiqlal hərəkatı ətrafında, cəmiyyətin maariflənməsi yolunda böyük mübarizənin təməlini qoyurdu. 1903-cü ildə «Şərqi-rus» ki-

---

[1] Aşırlı A. Azərbaycan mətbuat tarixi, «Elm və təhsil» nəşr. Bakı, 2009, s. 10.
[2] Vəliyev Ş. «Əkinçi» və əkinçilik // BDU jurnalistika fakültəsinin elmi əsərlər toplusu: «Həsən bəy Zərdabi» (1907-2007). «Bakı Universiteti» nəşriyyatı. Bakı, 2007, s. 21
[3] Mehdiyev M. Azərbaycan mətbuatı tarixinin inkişaf mərhələləri və müasir jurnalistika // Azərbaycan KİV sisteminin aktual problemləri, 2005, s. 11.

mi ümummilli qəzet səviyyəsinə yüksələn bir mətbuat orqanı işıq üzü gördü. Bu qəzet ən mütərəqqi Azərbaycan ziyalılarını – C.Məmmədquluzadəni, Ö.F.Nemanzadəni ətrafına topladı. Məhz onların zəhməti ilə 1900-1910-cu illərdə bütöv bir mətbuat, KİV sistemi meydana gəldi. Çox keçmədi ki, «Həyat», «İrşad» qəzetləri, «Füyuzat» və digər jurnallar yarandı. 1915-ci ildə M.Ə.Rəsulzadənin nəşr etdirdiyi «Açıq söz» qəzeti milli kimliyimizi, istiqlalçılığı, cümhuriyyət ideyalarımızı ortaya çıxaran mətbuat orqanlarının yaranmasına təkan verdi.

Birinci Dünya müharibəsi dövrü – 1914-1918-ci illər mətbuatında əsas tendensiyalardan biri milli özünüdərkin ön plana çıxması idi. Bu dövrün mətbuatı milli istiqlala, Azərbaycan Xalq Cümhuriyyətinin meydana gəlməsinə səbəb oldu. Mətbuat yeni ideyalara istiqamətlənməklə bərabər, bir sistem şəklində formalaşırdı.

Bu dövrün jurnalistikasının qarşısında duran ümummilli məqsədlər dəyişmişdi. Lakin dövr mürəkkəb və ziddiyyətli idi. Hakimiyyət uğrunda mübarizə strateji məqsədlərə çatmaqda, onları təbliğ etməkdə maneələr törədirdi. Siyasi cəhətdən daha az təqiblərə məruz qalan mətbuat orqanları bu illərdə digər bir çətinliklə - maddi və texniki problemlərlə üzləşmişdi. Azərbaycanda ilk dəfə olaraq senzurasız mətbuatın fəaliyyəti üçün hüquqi baza yaradılmışdı.

M.Mehdiyevin qeyd etdiyi kimi «Sovet hakimiyyəti illərində ... mətbuat, əsasən, sovet təbliğat maşınının «təkərciyinə və vintciyinə» çevrilmişdi».[1] Sovet dövrü Azərbaycan jurnalistikasının əldə etdiyi nailiyyətlər sırasında mətbuatın kütləviliyini, onun dilinin və üslubunun daha da təkmilləşməsini, publisistikanın, janr palitrasının inkişafını, sənətkarlığının artırılması üçün müxtəlif forma və metodlardan istifadənin səmərəliliyini və s. göstərmək olar.

Nəhayət, Azərbaycan jurnalistikasının, o cümlədən mətbuatının son 20 illik dövrü klassik ənənələrə qayıdışla bərabər, yeniliklərin bolluğu, ümumbəşəri dəyərlərin müəyyən qədər dəyişdiyi, mənafelərin uzlaşmadığı, ziddiyyətlərin artdığı bir mərhələdir.

Azərbaycanda müntəzəm radio verilişləri 1926-cı il noyabrın 6-da başlamışdır. Lakin radionun təməlini 1918-1920-ci illərdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyəti hökuməti qoymuşdur. Fransanın köməyi ilə Azərbaycanda hələ 1919-cu ilin noyabrında ilk radiostansiya fəaliyyətə başlamışdır. Lakin cümhuriyyətin süqutundan sonra bu işlər yarımçıq qaldı. Bu dövrdən sonra Azərbaycanda radionun yaradılması

---

[1] Yenə orada, s. 12.

Rusiyada bu sahənin inkişafı ilə bağlı olmuşdur. Çox müxtəlif mərhələlərdən keçmiş radionun 1927-ci ildən II Dünya müharibəsinin sonunadək olan dövrünü, əslində onun formalaşma mərhələsi hesab etmək olar. Bu dövrdə artıq radio çox ciddi bir informasiya vasitəsi statusunu alır.

Bütün aparıcı ölkələrdə televiziya quruculuğunun əsası 1930-cu illərdə qoyulmuş, bu sahədə əsl inkişaf isə II Dünya müharibəsindən sonra meydana gəlmişdir. Azərbaycanda televiziyanın inkişafı keçmiş Sovet İttifaqına daxil olan respublikaların hamısında olduğu kimi, Moskva Televiziya Mərkəzinin inkişafı ilə əlaqədar olub. 1956-cı ildə Bakıda yalnız şəhər əhalisinin baxa bildiyi televiziya fəaliyyətə başladı. Azərbaycan jurnalistikasında elə o zaman televiziya jurnalistikası anlayışı yarandı və fəaliyyətə başladı.

Bütün SSRİ-də olduğu kimi, Azərbaycanda da televiziya yaradıldığı gündən sovet ideologiyasının inhisarında fəaliyyət göstərib. Azərbaycan 1990-cı illərin əvvəllərində müstəqillik əldə edəndən sonra ölkədə jurnalistikanın bütün funksional növlərinin, o cümlədən televiziyanın inkişafı başlandı. Əvvəlcə ANS yayım və Mediya Şirkəti, daha sonra «Space», ABA, «Lider», ATV və digər televiziya kanalları yarandı. Beləliklə, televiziya KİV sisteminə daxil olmuşdur.

Dissertasiyanın I fəslinin ikinci yarımfəsli "**Sovet dövrü ideoloji televiziyasından müstəqillik dövrü ictimai institut telemodelinə keçid mərhələsi"** adlanır. Televiziya öz inkişaf tarixində hər bir ölkədə özünəməxsus yol keçmişdir. SSRİ-də, o cümlədən onun tərkib hissəsi olan Azərbaycanda televiziya dövlət strukturu kimi yaranmış, dövlətin, kommunist partiyasının və nəhayət, bunlara xidmət edən senzuranın nəzarətində olmuşdur. Sovet dövlətinin «Xalq və partiya birgədir», «Vahid sovet xalqı» kimi şüarları televiziyanın da bu cəmiyyətdə yerini müəyyən edirdi. Bu anlayışlar plüralizmə, demokratik fikirlərə tabular qoyurdu.

1956-cı ildən fəaliyyətə başlamış Azərbaycan televiziyası 1960-cı illərin sonlarında artıq aşağıdakı inkişaf qanunauyğunluqlarını bitirmək ərəfəsində idi:
1) «Zəruri texniki səviyyənin yaradılması, kütləvi verilişlərə başlanılması və yayımın təkminləşdirilməsi; 2) Kütləvi kommunikasiyanın xüsusi növü kimi televiziya sisteminin idarə olunmasının və fəaliyyətinin təşkili, ekran yaradıcılığının spesifik sahəyə çevrilməsi və telepublisistikanın formalaşması; 3) Televiziyanın cəmiyyət həyatına təsirinin güclənməsi və jurnalistikanın təməl prinsiplərinin ön plana çəkilməsi».[1] Bütövlükdə sovet və

[1] Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, s. 71.

eləcə də Azərbaycan televiziyası bu mühüm inkişaf tarixinin göstərilən üç əlamətlərdən birinci iki əlaməti az-çox yerinə yetirmişdir. Üçüncünü isə sovet dövrünün ideoloji televiziyasında yerinə yetirmək mümkün deyildi. Televiziya nəzəriyyəçiləri bu prinsipial əlamətlərə görə Azərbaycan televiziyasının inkişaf tarixini üç dövrə bölürlər: «I. Başlanğıc dövrü (1953-1960-cı illər) Azərbaycanda televiziya yaradılması üçün konkret addımların atılması, studiya inşası, yayımın başlanması və efirdə ilk eksperimentlərin aparılması; II. Kütləvi verilişlər dövrü (1960-1980-ci illər); III. İctimai həyata nüfuzun güclənməsi dövrü (1980-ci illərdən bugünədək)».[1]

Azərbaycanda televiziyanın ideoloji təbliğat və təşviqatdan uzaqlaşıb «gerçək xəbərçiliyə keçməsi, yəni bu kontekstdə III mərhələyə qədəm qoyması daha çox Sov. İKP MK-nın 1985-ci il Aprel plenumunda ortaya atılmış «yenidənqurma, aşkarlıq və demokratiya» şüarından sonraya aiddir. O dövrə qədər Azərbaycanda yalnız dövlət telekanalı mövcud olmuş və dövlətin, Kommunist Partiyasının ideologiyasını təbliğ etmişdir. Bununla belə, sovet dövrü Azərbaycan televiziyasının müsbət işləri də az olmamış, bütün ideoloji-təbliğatı xarakterinə, kommunist ideologiyasına xidmət etməsinə baxmayaraq orada çalışan milli təfəkkürlü ziyalıların səyi nəticəsində milli-mənəvi dəyərlərimizin qorunması və formalaşması yolunda, maarifçilik işində öz müsbət rolunu da oynamışdır.

SSRİ-də, o cümlədən Azərbaycanda televiziyanın ideoloji vəzifəsi müəyyən dərəcədə zəifləsə də, hakimiyyət bu zəifləmədən narahat olurdu. Məsələn, 1970-ci illər Azərbaycan radiosunda yaranan «Bulaq» proqramı dinləyicilərə sırf milli-mənəvi dəyərləri çatdırırdı. Televiziyanın «Məşəl» proqramı da eyni məzmun kəsb edirdi. Azərbaycan televiziyası yazıçıların, milli kinematoqrafiyanın tarixi mövzuda yaradıcılıq məhsullarına xüsusi diqqət yetirməklə milli oyanışa xidmət edirdi. «Nəsimi», «Dədə Qorqud», «Babək», «Qaçaq Nəbi», «Yeddi oğul istərəm» və s. kimi kinofilmlərin təbliğində milli oyanışa çağıran notlar mövcud idi. Yazıçı İsa Hüseynov, İsmayıl Şıxlı, Fərman Kərimzadə və b.-nın tarixi mövzuda yaradıcılıqlarına televiziyada müraciətin artması təsadüfi deyildi. Bu əsərlərdə xalqımızın tarixi keçmişi və bu keçmişin qurur verən səhifələri əksini necə tapırdısa, onların haqqında hazırlanan teleproqramlar da bu məqsədi güdürdü. Artıq 1970-ci illərdən başlayaraq Azərbaycan televiziyası təkcə «partiyanın ideoloji təbliğat ruporu» deyil, həm də xalqın tarixini, milli dəyərlərini, sosial məsələləri işıqlandıran bir vasitəyə çevrilir.

---

[1] Yenə orada.

Azərbaycanda 1970-ci illərin sonlarında telejurnalistikaya gəlmiş Q.Məhərrəmli, Z.Məmmədli, bir az onlardan əvvəlki H.Hacıyev, Ə.Qafarlı və b. kimi demokratik ruhlu jurnalistlər həmin rejimin ideoloji qaydalarından çıxmaq üçün cəhd göstərsələr də, buna tam nail ola bilmirdilər. Lakin bütün bunlarla belə, yuxarıda qeyd etdiyimiz kimi, Azərbaycan televiziyası 1980-ci illərin əvvəllərinə istər texniki cəhətdən, istər jurnalist kadrları sahəsində, istərsə də hadisələrə xeyli dərəcədə obyektiv yanaşma tərzi ilə yeni yaradıcılıq üslubuna qədəm qoymuşdu.

Dissertasiyanın I fəslinin üçüncü yarımfəsli "**Azərbaycan televiziya sisteminin inkişaf dinamikası**" adlanır. 1990-cı illərin əvvəllərinə qədər dövlətin monopoliyasında olan Azərbaycan televiziyası cəmi bir kanalla fəaliyyət göstərmişdir. Belə bir sistemin yaranması üçün SSRİ kimi dəmir senzura qadağalarına söykənən bir ölkədə rejimin dəyişməsi lazım idi. Bu dəyişikliyin simptomları isə artıq 1980-ci illərin əvvəllərində hiss olunmağa başlamışdı. Televiziyada sərt ideoloji aspekt qalmaqda idi. Hakimiyyət onun gücünü yaxşı bildiyindən hətta aşkarlıq və demokratiyaya gedən yolda da TV jurnalistlərinə müstəqillik vermirdi. Bütün bunlarla belə, TV üzərində hakimiyyəti uzun müddət saxlamaq mümkün olmadı. «Projektor perestroyki», «Televizionnaya slujba novostey», «Vzqlyad» və s. kimi proqramlar göstərdi ki, SSRİ televiziyası demokratik dəyərlərin formalaşmasına cəhd etməkdədir. Moskva, Leninqrad telekanallarının inkişafa meyli tezliklə yerli kanallarda, o cümlədən Azərbaycan televiziyasında da özünü göstərməyə başladı. Amma Azərbaycanda başqa amillər də vardı. Bunlardan ən başlıcası Ermənistan DTK-sının əvvəlcədən hazırladığı Dağlıq Qarabağı Azərbaycandan ayırmaq planını mitinqlər və silahlı atışmalarla həyata keçirməyə başlaması oldu. Bütün bunlar hətta Mərkəzi Komitənin orqanı olan «Kommunist», «Bakinski raboçi» kimi qəzetlərdə obyektiv təhlil edilir, Azərbaycan televiziyası mitinqlərdən canlı reportajlarla ziyalıların – Ş.Hüseynovun, Z.Bünyadovun, Anarın, Famil Mehdinin canlı etirazlarını yayırdı. Jurnalistlərdən Q.Məhərrəmlinin, E.Eminbəylinin və b.-nın verilişləri demokratik xarakteri ilə həm formaca, həm də məzmunca yeni idi.

Dağlıq Qarabağ və müstəqillik uğrunda mübarizə fonunda yaradılan Dağlıq Qarabağa Xalq Yardımı Komitəsi Azərbaycan Xalq Cümhuriyyəti dövrünün süqutundan sonra nəşri dayandırılmış «Azərbaycan» qəzetini bərpa etdi, sonradan «215KL» studiyası kimi fəaliyyət göstərən və bir müddətdən sonra ANS TV-nin bünövrəsini təşkil edən videoçəkilişlər ənənəsi yaratdı. Azərbaycan televiziyası müstəqil bir kanala çevrildi.

Azərbaycan televiziyası ölkənin müstəqillik əldə etməsi ilə yeni

inkişaf mərhələsinə qədəm qoyur. XX əsrin 50-ci illərində Azərbaycan televiziyası fəaliyyətə başlayanda dövlət və kommunist ideologiyası sisteminə güclü bir silah kimi daxil oldu və mövcud rejimə xidmət etməyə başladı. Birdən-birə peyda olan «sehrli güzgü» evlərdə konsert, teatr, bədii filmlər göstərməklə ilk dövrlər «ev kinosu» adı ilə məşhurlaşdı. Onun kütləvi informasiya vasitəsi kimi sosial-siyasi vəzifəsini dəqiq müəyyənləşdirmək sanki yaddan çıxdı. Yalnız bir-birinin boyuna biçilmiş qəzet, jurnal və radio jurnalistikasından nümunələr televiziyada da translyasiya edilir, öz ilk forma və janrlarını da qəzet və radiodan əxz edirdi. Uzun müddət yeni kütləvi informasiya vasitəsinin, yəni televiziyanın öz ideologiyası, fəaliyyət prinsipləri müəyyənləşməmiş qaldı.

Uzun illər Azərbaycan televiziyasına rəhbərlik etmiş E.Quliyev respublikanın teleefir tarixini iki dövrə bölür: a) 1956-1991-ci illər - sovet və yaxud əyalət mərhələsi; b) 1991-ci ildən başlanan müstəqillik dövrü. Bundan əlavə mütəxəssis hər bir mərhələni daha kiçik vaxt kəsiyinə bölür.

XX əsrin 70-80-ci illərində televiziya jurnalistikası sahəsində fəaliyyət göstərmiş jurnalistlər yeni forma və üslub nümayiş etdirməyə çalışırdılar. 80-ci illərdə Azərbaycan televiziyasında 50 adda veriliş yayımlanırdı. 1991-ci ilin sonlarında teleməkanda gedən proseslərin təsiri altında AzTV-də də islahatlar aparıldı: redaksiyaları studiyalar, diktorları isə aparıcılar əvəz etdi; «24 saat» İnformasiya proqramının məzmun və formasında dəyişikliklər edildi; «1000 saniyə» adlı gecə informasiya proqramı, «215 KL təqdim edir», «Xoş gördük», «Qulp» və s. verilişlər efirə çıxdı.

1992-ci ilin əvvəlindən ölkədə ictimai-siyasi vəziyyətin ağırlaşması, Dağlıq Qarabağda və ətraf rayonlarda hərbi əməliyyatların miqyasının genişləndirilməsi hakimiyyət dəyişikliyinə gətirdi. Ekranda dəyişiklik öncə «Xəbərlər», «Günün nəbzi» və «Həftə» analitik-informasiya proqramlarında özünü göstərdi.

Bu gün Azərbaycanda bütöv bir televiziya sistemi yaranmışdır. İndi biz «Azərbaycan teleməkanı» kimi çeşidli televiziyalar faktını nəzərdə tutan ifadəni cəsarətlə işlədirik. Bu sistemin inkişaf dinamikası bütövlükdə dövlətin hər bir istiqamətdə inkişaf prosesi ölkənin müstəqillik faktı ilə birbaşa bağlıdır.

Müstəqillik özəl televiziya və radioların yaranması üçün də meydan açdı. ANS televiziyasının ardınca «Space» (1997), «Lider» (2000), «Azad Azərbaycan» (2002), «İctimai Televiziya və Radio Yayımları Şirkəti» (2005), «İdman Azərbaycan» və «Azərbaycan İnternational» telekanalları meydana çıxdı, digər tərəfdən bölgələrdə də teleradio qurumları fəaliyyət göstərir.

Faktlar sübut edir ki, Azərbaycan media sistemində özünün xüsusi yeri olan televiziya məkanı yalnız ölkənin müstəqillik əldə etməsilə dinamik inkişafa nail olmuş və bu gün də öz inkişafını davam etdirməkdədir.

Dissertasiyanın II fəsil **“Azərbaycan teleməkanının müasir inkişaf mərhələsi”** adlanır.

II fəslin birinci yarımfəsli **“KİV-in özəl sektorunun meydana gəlməsi televiziya sisteminin formalaşma prosesinin əsas faktoru kimi”** adlanır.

Cəmiyyətin ciddi dəyişikliklər, azad fikir, özünüifadə tələbləri 1980-ci illərin ikinci yarısında ortaya atılan və xeyli dərəcədə gerçəkləşən aşkarlıq, demokratiya prinsipləri ilə xüsusi qüvvətlə gündəmə çıxdı. Mətbuatın azad iradə və sosial məsuliyyət kimi dünya praktikasında özünü tam doğrultmuş modellərinin qarşısında meydan oxuyan kommunist modeli bu dövrədək cəmiyyətdə aşkarlığın və demokratiyanın boğulması vəzifəsini yerinə yetirirdi. XX əsrin sonunda dünya KİV sisteminin xüsusilə sərhədsiz radio və telekanalların inkişafı, güclü antenlərin sovet cəmiyyətinə də çatdırdığı azad söz, azad özünüifadə duyğuları bu cəmiyyətin də yeniləşməsi zərurətini ortaya qoydu. Rusiyada «Pamyat», «Memorial», Pribaltikada «Saudis», Azərbaycanda «Xalq Cəbhəsi» tipli milli özünüdərk, suverenlik və müstəqillik uğrunda mübarizə təşkilatları meydana çıxdı. Ona görə də SSRİ Dövlət Təhlükəsizlik Komitəsi milli münaqişə yaratmaq taktikasını işə salaraq Gürcüstanda, Azərbaycanda, Litvada qırğınlar törətdi, Dağlıq Qarabağda erməni icmasının bu regionu Ermənistana birləşdirmək tələblərini gündəmə gətirdi.

Jurnalistikada yenidənqurma aşağıdakı mərhələlərdən keçmişdir:

1. Dövlətin və kommunist partiyasının monopoliyasında olan mətbuat öz sahibinin mütləq diktəsindən imtina prosesi yaşadı. Bu, Azərbaycanın «Молодежь Азербайджана», «Kommunist» kimi qəzetlərinin tematikasında özünü göstərdi.

2. Qeyri-formal təşkilatların yaranması ilə SSRİ-nin milli müstəqilliyə can atan bütün respublikalarında onların qəzetləri, jurnal tipli nəşrləri meydana gəldi.

3. Mətbuat üzərində 70 il öz monopoliyasını saxlamış sovet sisteminin dağılması ehtimalını duyan qüvvələr və onların sivil dünya praktikasına söykənəcək KİV sistemi yaratmaq təşəbbüslərinin gerçəkləşməsi. Bu mərhələnin gerçəkləşməsi üçün mövcud sistemin və rejimin dəyişməsi lazım gəlirdi. Bunun üçün SSRİ dövləti tamamilə dağılmalı və bazar münasibətləri sisteminə keçid mərhələsi başlanmalı idi. Qərb ölkələrindən və hətta XIX əsr Rusiyasından fərqli olaraq Azərbaycan mətbuatı

tarixində 1990-cı ilə qədər qəzet və jurnal nəşrini xüsusi qazanc, gəlir mənbəyi kimi qəbul edən naşir az olmuşdur. Bizcə, bunun iki mühüm səbəbi var: 1. Azərbaycanda mətbuat orqanlarını XIX əsrin sonu və XX əsrin əvvəllərində birmənalı olaraq xalqa xidmət etmək üçün doğulmuş ziyalılar yaradırdı. Onların milli təəssübkeşliyi qəzetə, jurnala qazanc mənbəyi kimi yanaşmağa imkan vermirdi; 2. XX əsrin 30-cu illərindən Qərb ölkələrində özünü mükəmməl formada göstərən özəl mətbuat sektorundan sovet rejimində yaşayan Azərbaycan uzaq idi.

Azərbaycan yeni jurnalistikaya keçid mərhələsini bu ictimai institutun güclü biznes rolu oynamağa başladığı çağda yaşadı. Milli jurnalistikamızın 1990-cı illərə qədərki xarakterini nəzərə alsaq, biz məhz yeni jurnalistika mərhələsinə qədəm qoyuruq. Azərbaycan jurnalistikası Qərbin söykəndiyi modelləri çox tez qavramağa və həyata keçirməyə başladı.

Bəzən belə nəzəri fikir də səslənir ki, əslində dünya jurnalistikasının təcrübəsi Azərbaycanda 1920-ci ilədək tətbiq edilmiş, yalnız sovet rejimi dönəmində Azərbaycan bir müddət ondan ayrılmış, indi həmin təcrübəyə qayıtmaqdadır. Bu fikrin müəllifləri ilə mübahisəyə girmək olar. Bu tezisin opponentlərinin də belə bir əks arqumenti var ki, sovet dönəminin 70 ilində Qərb modellərinin özü də ciddi inkişaf dəyişikliyinə uğramış və həmin müddətdə sovet, eləcə də Azərbaycan sovet jurnalistikası bu keyfiyyətə məhəl qoymamış, bu təcrübəni şüurlu şəkildə rədd etmişdir. Həmin təcrübədən şüurlu, ideoloji kanonlar məngənəsində imtina edilməsi bizim jurnalistikanı çox geri qoymuşdur. Sovet jurnalistikasının nəzəriyyə və praktikasından imtina çox çətin olsa da, yeni dönəmdə yaradılan kütləvi informasiya vasitələri bu çətinliyə sinə gərə bildi.

Bu prosesi Azərbaycan bütün sovet jurnalistika sistemi ilə birgə keçirmişdir. Hətta Şərqi Avropa ölkələri də, sovetlərin II Dünya müharibəsi zamanı sosializmi «ixrac» etdikləri ölkələr də bu prosesi yaşamışdır. O zaman Azərbaycanda nəinki qəzet və jurnalların, habelə elektron KİV-in də özəl sektoru yaranmağa başladı. Lakin bütün bu proses o qədər də asan başa gəlmədi. İlk növbədə elektron informasiya vasitələrinin özəl sektor üzərində də qurulması nəinki hakim ideologiya sahiblərinin, hətta ziyalıların, bütövlükdə cəmiyyətin böyük bir hissəsinin də çətinliklə qəbul etdiyi fakt olaraq qaldı.

Digər tərəfdən, hakim dairələr radio və televiziyanın təsir gücünün qəzetdən qat-qat artıq olduğunu hiss edərək ilk vaxtlar belə kanalların təsis prosesinə çox qısqanclıqla yanaşır, onların qeydə alınması, lisenziyalaşdırılması qarşısında müxtəlif əngəllər yaradırdı. Azərbaycanda özəl televiziya kanalı yaratmaq 1990-cı illərin əvvəllərinin ən çətin işlərindən

biri idi. Lakin nə qədər çətinliklə olsa da, belə kanallar yaradıldı.

Radio və televiziya nəhəng maliyyə xərci tələb edir. XX əsrin sonunda Azərbaycanın zəif iqtisadiyyatı şəraitində bu ölkədə telekanal yaratmağın maliyyə çətinliyini bu rəqəmlə müqayisədə duymaq mümkündür.

Sovet hakimiyyətinin dağılması ərəfəsində cəmiyyətdə KİV-lə bağlı belə bir nəzəri fikir vardı: KİV ya SSRİ-dəki kimi inzibati-amirlik sisteminin təbliğat maşını rolunu oynamalı, ya da bütün sivil dünyada olduğu kimi bazar münasibətlərinin doğurduğu demokratik yolu seçməlidir.[1] İkinci yol daha uğurlu və müstəqil fəaliyyət vəd edirdi. İkinci yol, habelə KİV-in kommersiya qolunu ehtiva edir. Bu dövrdən kommersiya KİV nümunələri meydana gəldi.

Müstəqil medianın qərəzsizliyini və vicdanlılığını ictimaiyyətin bazar iqtisadiyyatını, kommersiya qanunlarını dərk edən hissəsi çox yaxşı başa düşür. Müstəqil media kommersiya tipindədir. Kommersiya yalnız kiməsə, yalnız hansısa qrupa, ya hansısa partiya maraqlarına xidmət etməyi sevmir. Kommersiya qəzeti, ya telekanalı cəmiyyətin bütün qatlarına xidmət etməyi öyrədir. Bu mənada kommersiya jurnalisti dəqiq, qərəzsiz və vicdanlı olmağa məhkum edir. Azərbaycanda keçid dövrünün çətin mərhələsində bu tipli qəzetlərin və telekanalların yaranması və fəaliyyəti gələcək inkişafdan xəbər verirdi.

İndi bütün postsovet məkanı, eləcə də Azərbaycan bazar iqtisadiyyatına keçid dövrünü yaşayır. Azərbaycanda bazar münasibətləri ilk olaraq KİV-də tətbiq olundu, mətbuatın özəl sekloru sürətlə yaranmağa başladı. 1990-cı illərin əvvəllərində onlarca özəl qəzet, bir az sonra isə radio və televiziya şirkətləri yarandı. Bütün mətbuat sistemində xüsusi qəzet-jurnallar, televiziya və radioqurumları həm sayca artdı, həm də yeni məzmunda meydana çıxdı.

II fəslin ikinci yarımfəsli **"Elektron informasiya vasitələrinin qanunvericilik bazasının formalaşmasının telesistemin inkişafında rolu"** adlanır.

Azərbaycanda televiziyanın inkişafı, yeni telekanalların yaranması üçün çox vacib olan iki mühüm şərtdən biri həyata keçmişdi: Azərbaycan müstəqillik əldə etmiş, bazar münasibətləri sisteminə qədəm qoymuş, bir çox sahələrdə, o cümlədən media sahəsində dövlət monopoliyası ləğv edilmişdi. Bu birinci şərt yerinə yetirildi. İkinci əsas şərt KİV sahəsində qanunvericilik bazasının yaradılması idi. Ona görə ki, bütün sahələrdə, o

---

[1] Засурский И. Масс-медиа второй республики. М. , 1998, с. 28.

cümlədən KİV və xüsusilə teleradio sahəsində qanun və onun mexanizmi olmadan iş görmək mümkün deyil. Müstəqil Azərbaycan Respublikasında meydana çıxan qanunlar sırasında «Kütləvi informasiya vasitələri haqqında» qanun çox tez qəbul olundu. Çünki müstəqillik əldə edən Azərbaycan ilk növbədə demokratik, hüququ dövlət quruculuğuna xüsusi diqqət yetirirdi.

Azərbaycan müstəqillik əldə edəndə artıq bu respublikanın mətbuat qanunvericiliyi sahəsində müəyyən təcrübəsi var idi. 1918-ci ildə milli müstəqillik uğrunda mübarizənin Azərbaycan Xalq Cümhuriyyəti ilə nəticələnməsi mətbuatın hüquqi əsaslarını da yaratdı. 1919-cu il oktyabrın 30-da Azərbaycan Parlamentində «Mətbuat Nizamnaməsi» qəbul olundu. 1920-ci il aprelin 28-də Rusiya imperiyasının Azərbaycana müdaxiləsi mətbuat azadlığına son qoydu. Azərbaycan yenidən 1991-ci ildə müstəqillik qazandı və 1992-ci ildə «KİV haqqında Azərbaycan Respublikasının Qanunu» qəbul edildi. 1998-ci ildə sovetlərdən qalan senzura və onun qalıqları Azərbaycan Prezidentinin xüsusi fərmanı ilə ləğv olundu. 1999-cu il dekabrın 7-də Milli Məclis KİV haqqında yeni, daha təkmil qanun qəbul etdi. Beləliklə, Azərbaycanda KİV-in hüquqi bazası yarandı. Ölkədə teleradio qurumlarının daha dəqiq qanunvericilik bazasının yaradılması üçün 2002-ci ilin iyununda «Televiziya və Radio Yayımı haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Qanun Azərbaycanda müxtəlif statuslu telekanalların yaranmasına imkan verirdi. Ayrı-ayrı statuslu telekanalların xarakterini qanun belə müəyyənləşdirir: dövlət yayımçısı, bələdiyyə yayımçısı, ictimai yayımçı, özəl yayımçı. Qanun çox aydın şəkildə televiziyaları xarakterinə, statusuna görə təsis etməyin mexanizmini ortaya qoymuşdur. Bununla bərabər, teleradio qurumlarının təsis edilməsi üçün qanunda göstərilən «müvafiq dövlət orqanı»da yaradıldı. 2002-ci ildə «Milli Televiziya və Radio Şurası» yaradıldı. Bu qurum tamamilə müstəqil olaraq ölkədə teleradionun təsis edilməsini və onların fəaliyyətinin qanuna uyğun olmasını təşkil edir.

“Televiziya və Radio Yayımı haqqında” Azərbaycan Respublikasının Qanunu Azərbaycan teleməkanında söz azadlığını təmin edir. Qanunda təsbit olunan prinsiplər tamaşaçıya, dinləyiciyə, bütövlükdə cəmiyyətə hörmət və onun qarşısında jurnalistin sosial məsuliyyətini ifadə edir.

Qanunda təsbit olunmuş «qərəzsizlik və tərəfsizlik» prinsipi xüsusi diqqətə layiqdir. Azərbaycan jurnalistikası üçün tərəfsizlik və qərəzsizlik tamamilə yeni keyfiyyətdir. Dünya jurnalistikasının əsas doktrinalarından olan tərəfsizlik və qərəzsizlik informasiyanın inandırıcılığını, doğru-düzgünlüyünü təmin edən güclü keyfiyyətdir.

Televiziya və radio yayımı fəaliyyətinin əsaslandığı «digər normativ aktlar» ümumiyyətlə informasiya sahəsində dövlət siyasətini əks etdirən hüquqi sənədləri ehtiva edir. 2004-cü ildə «İctimai Televiziya və Radio Yayımı haqqında» qanun qəbul etdi. Azərbaycan Avropa şurasına daxil olması zamanı qəbul etdiyi öhdəliklərdən biri ictimai teleradionun yaradılması oldu. Bu qanun Avropa Şurasının İctimai TV üzərinə qoyduğu siyasi yanaşmaya söykənir.

İctimai teleradio xeyli dərəcədə özünəməxsus xarakterə malik olduğu üçün onun fəaliyyətini tənzimləyən qanun bütün sahələri, bu televiziyanın təşkilati işindən tutmuş maliyyəşməsinə qədər hər şeyi əhatə edir.

Beləliklə, üzərində geniş dayandığımız elektron informasiya vasitələri haqqında qanunvericilik bazası ölkədə kommersiya, ictimai teleradioların yaranma və fəaliyyət mexanizmini aydın şəkildə ortaya qoyur. Bu da ölkədə teleradionun həm sayca, həm də peşəkarlıq baxımından inkişafına güclü təkan verir.

II fəslin üçüncü yarımfəsli **“Azərbaycan teleməkanında televiziyanın yeni tipoloji sistemi”** adlanır. Bu gün media sistemində getdikcə genişlənməkdə olan tipoloji faktorlar ciddi elmi müzakirə obyektinə çevrilmişdir.

Azərbaycan teleməkanında həm tarixi yaranma dövrünə, həm də polifonik-çoxməzmunlu fəaliyyətinə görə AzTV ilkin yerdə durur. Bu televiziyanın müasir fəaliyyətinin bəzi aspektləri, məsələn, təbliğatçılıq, ideoloji funksiyanı hələ də saxlaması, daha çox rəsmi xəbərlərə üstünlük verməsi, sosial problemlərin qoyulmasında ləng hərəkəti, cəmiyyətin müxtəlif palitralı təbəqələrinin heç də hamısına eyni münasibətin görünməməsi, plüralizmin tam təmin olunmaması və s. kimi faktlar cəmiyyət tərəfindən birmənalı qarşılanmır. AzTV-nin fəaliyyəti müxtəlif mətbuat orqanlarında, xüsusilə müxtəlif qəzetlərdə xeyli dərəcədə tənqid obyektinə də çevrilmişdir. Lakin bütün bunlarla belə televiziya dövlətçiliyin inkişafı, müstəqilliyimizin qorunması, Qarabağ problemini daimi olaraq gündəmdə saxlaması, rəsmi informasiyaya diqqəti çəkməsi, milli-ənənəvi dəyərlərimizə real münasibəti, elm, incəsənət xadimlərinin teleportretlərinin təqdimi və s. onlarca problemə baxışı ilə geniş tamaşaçı auditoriyasına malikdir.

Azərbaycan televiziyası öz tipoloji xarakterini 80-ci illərin ikinci yarısından dəyişir: ideoloji-təbliğat kanalından polifonik-hərtərəfli mövzu dünyasına malik, milli-azadlıq hərəkatını təqdir edən bir kanala çevrilir. Bütün bunlar həmin televiziyanın yeni tipdə fəaliyyətini labüd etdi. Bu televiziyanın «Xəbərlər» proqramı Azərbaycan televiziyasının tipoloji

xarakterini müəyyənləşdirməyə daha çox imkan verir, digər telekanallardakı informasiya proqramlarından fərqli olaraq rəsmi dövlət, prezident xəbərlərinə üstünlük verir. Bu televiziyada «Yurd yeri», «Musiqi xəzinəsi», «Ailə həkimi», «Təmas nöqtəsi», «Ədəbi abidələr», «Azərbaycan tarixi», «Ovqat» və s. kimi proqram cədvəlində daimi yer tutan verilişlər xeyli dərəcədə rəsmi xarakter daşıyır və onlardakı publisistika maarifçilikdən daha çox təbliğat xarakterindədir.

Azərbaycan teleməkanında İctimai teleradio dövlətçiliyin inkişafına, demokratik dəyərlərin formalaşmasına, plüralizmin təmin olunmasına, cəmiyyəti narahat edən problemlərin müzakirə, polemika müstəvisində ictimai həllinə kömək etməyə yönəlmiş bir informasiya vasitəsi kimi formalaşmışdır. Bu televiziya Avropa anlamında qəbul olunmuş ictimailik mahiyyəti ilə diqqəti cəlb edən milli yaradıcılıq konsepsiyasına malikdir. Konsepsiya teleradionun fəaliyyətə başlaması ərəfəsində yaradılmış və onun informasiya siyasətini müəyyənləşdirmişdir.

Azərbaycan teleməkanında kommersiya kanallarının bünövrəsinə qoyan «ANS» kanalının təsisçiləri Vahid və Seyfulla Mustafayev qardaşları, Mir Şahin Ağayev «Azərbaycanda öz sözünü deyə biləcək yeni telekanalın yarandığını az zaman kəsiyində auditoriyaya sübut edə bildilər. Bu, keçmiş Sovet İttifaqında yaradılmış ilk müstəqil televiziya idi».[1] ANS telekanalının tipoloji xarakterini, modelini onun müasir dövrdəki proqramlarından müəyyən etmək mümkündür. «Salam Azərbaycan» səhər proqramı əsas yeri informasiyaya, musiqiyə, «Nəzər nöqtəsi», «Hesab vaxtı» proqramları isə aktual məsələlərin şərhinə yer verir, «İç xəbər» sosial problemləri əhatə edir. Lakin «Kökaltı», «Toylar kralı» kimi proqramlar bu telekanalın formalaşmış tipoloji xarakterinə kölgə salır. Beləliklə, ANS telekanalı siyasi, sosial hadisə və problemlərə xüsusi diqqət yetirməsi və bu sahələrə üstünlük verəsi ilə ictimai-siyasi, sosial yönümlü tipoloji imic qazanmışdır.

Azərbaycanın kommersiya telekanalları sistemində yaranma tarixinə görə ikinci yer tutan «Space» kanalı proqramlara informasiyaya ictimai maraq prinsipindən yanaşır, hadisənin harada baş verməsindən asılı olmayaraq onu Azərbaycan tamaşaçısının marağına uyğunlaşdırır. Bu mənada «Hər gün» səhər proqramları, «Etiraf» tok-şousu, «Bizi barışdırın», «Qonağımız olun» kimi proqramlar tamaşaçı diqqətini cəlb edir və televiziyanın tipoloji xarakterini – milliliyə, mənəvi dəyərlərə, azərbay-

---

[1] Hacıyev Ə. Azərbaycan teleməkanında ANS telekanalı // BDU Jurnalistika fakültəsi. «Azərbaycanın müasir KİV sisteminin aktual problemləri» elmi toplusu. 2006, s. 31.

cançılığa bağlı xüsusiyyətini formalaşdırır.

Kommersiya telekanalları sistemində «Lider» televiziyasının da öz yeri var. Bu kanalın tipoloji xarakterini müəyyən edən əsas cəhət onun dövlətçiliyə daimi sədaqətidir. Bu telekanal Azərbaycan dövlətçiliyinə daxildən və xaricdən zərbə vura biləcək hər cür qüvvəyə qarşı xüsusi proqramları ilə xüsusiləşir. «Səda» xəbərlər proqramı, «Sədadan sonra» kimi proqramlarda qeyd etdiyimiz xarakter özünü daha çox göstərir. «168 saat» adlı bir vaxtlar həftənin hadisələrini şərh edən analitik-informasiya proqramında xüsusilə seçkilər dövründə müxalifətə qarşı sərt çıxışlar olurdu. Bu tipli proqramlar «Lider»i açıq iqtidar yönlü TV kanal kimi xarakterizə etməyə əsas verir.

Azərbaycanın kommersiya kanalları arasında baş verən tipoloji formalaşma prosesində özünəməxsusluğu ilə seçilən «Azad Azərbaycan» kanalı yarandığı vaxtdan əyləncəli şou proqramlarına üstünlük verir. Kanalın orijinal realiti-şouları çox böyük auditoriya toplaya bilir. Televiziyanın dünya əyləncə təcrübəsində özünü doğruldan «Zəif bənd», «Milyonçu» kimi proqramları bir vaxtlar populyarlıq qazanmışdı. Əlbəttə, ATV-nin «Son xəbər» informasiya proqramı da var və bu proqram öz xəbər təqdimi, reportyor bacarığı, bəzən seçilən cəsarəti ilə peşəkarlığı baxımından çox maraqlıdır. Lakin ATV-nin xarakterini bu tipli proqramlar deyil, «Gün keçir», «10-lar», «ATV maqazin» və s. kimi əyləncə tipli proqramlar müəyyənləşdirir və bu kanal əyləncə meyilli tipoloji xarakteri ilə seçilir.

Bu gün Azərbaycanda «İdman-Azərbaycan», «Mədəniyyət» kimi ümumrespublika əhatəsində yayımlanan telekanallar da mövcuddur ki, onların adlarına diqqət etməklə tipoloji xarakterlərini başa düşmək olar.

Azərbaycan telekanallarının kommersiya sistemində ayrıca tipoloji xarakterə malik olan regional–bölgə telekanalları da mövcuddur. Sumqayıtda, Gəncədə, Qubada, Mingəçevirdə, Lənkəranda və başqa regionlarda yaradılan telekanalların hamısında yeri xəbərlər, bölgənin problemləri, rayon icra hakimiyyətinin rəsmi xəbərlərinə, hətta toy mərasimlərinə daha çox yer ayırırlar.

Bu gün informasiya texnologiyalarının inkişaf sürəti internet TV-nin də meydana gəlməsinə şərait yaratmışdır. Artıq dünya internet şəbəkəsi formalaşmışdır və ənənəvi qəzet, radio, televiziya bu texniki vasitə ilə rəqabətdə getdikcə geri çəkilməkdədir.

Dissertasiyanın III fəsli **"Azərbaycan teleməkanında peşəkarlığın inkişaf məsələləri"** adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir.

III fəslin birinci yarımfəsli **"Telejurnalistikanın yeni yaradıcılıq**

**prinsipləri və Azərbaycan gerçəkliyi"** adlanır. Telejurnalistikanın uğurunda, əlbəttə, bir çox amillərin olması vacibdir. Məsələn, bu sırada yeni texnika, müasir səviyyəli studiyalar və s. Lakin telejurnalistikanın uğurunu təmin edən əsas cəhət yenə də ədəbi yaradıcılığın, peşəkarlığın yüksək səviyyədə olmasıdır. Bu imkanlar sırasında xüsusi ixtisas təhsili, nəzəri ədəbiyyatın meydana gəlməsi, beynəlxalq təcrübəyə istinad, rəqabət şəraiti və s. amillər dayanır.

a) **Jurnalistika təhsili, nəzəri, praktik tədqiqatlar.** Əsl peşəkar jurnalist, o cümlədən telejurnalist olmaq üçün peşə təhsilinin olması zəruridir. Azərbaycan Dövlət Universiteti (indiki BDU) 1970-ci illərdən başlayaraq Jurnalistika fakültəsində qəzet, nəşriyyat, televiziya, radio və tərcümə sahələri üzrə ixtisaslaşma aparmış, ölkədə peşəkar televiziya kadrları hazırlayan yeganə mərkəzə çevrilmişdir.

Ölkədə telejurnalistika peşəkarlığının artmasına təsir edən amillərdən biri televiziyaya dair nəzəri ədəbiyyatın, tədqiqatların artmasıdır. Bu sahədə ilk tədqiqatlar F.Mehdiyə və T.Rüstəmova[1] məxsusdur. Müstəqillik əldə etdikdən sonra televiziyanın bir sistem kimi inkişafı, bu sahədə özəl sektorun yaranması, ictimai, regional TV-lərin meydana gəlməsi telejurnalistikanın nəzəri və praktik məsələlərinə dair elmi ədəbiyyatın çoxalmasına münbit şərait yaratdı. E.Quliyevin, Q.Məhərrəmlinin, Y.Əlizadənin, A.Dadaşovun, Ə.Qafarlının[2] telejurnalistikanın müxtəlif sahələrinə dair tədqiqatları peşəkarlığın artırılması sahəsində mühüm rol oynayır.

b) **Beynəlxalq təcrübə**. Azərbaycan müstəqillik əldə etməsindən dərhal sonra öz istiqaməti ilə Qərbyönlü bir dövlətə çevrilmə siyasətini əsas götürdü.

Azərbaycan telejurnalistləri rus tədqiqatçıları Ə.Bağırov, A.Y.Yurovski, V.V.Yeqorov və s. kimi məşhur telenəzəriyyəçilərə güvənsələr də, 1990-cı illərin əvvəllərindən isə elə həmin müəlliflər Qərb prinsiplərini müdafiə etməyə başladılar. Azərbaycanda telejurnalistikanın hüquqi tənzimlənməsi, etik prinsipləri və s. haqqında praktik kitabların meydana gəlməsi və bütün bunların Qərb qaydalarına istinadən hazırlanması peşəkarlığın yüksəlməsinə şərait yaratdı. Bu sırada Q.Məhərrəmlinin

---

[1] Mehdi F. Televiziya jurnalistikası // Jurnalistika məsələləri, Bakı: Maarif,1972, s.268; Rüstəmov T. Radiojurnalistikanın əsasları // Jurnalistika məsələləri, Bakı: Maarif, 1972, s. 245.

[2] Quliyev E. Televiziya iki əsrin astanasında. Bakı: «İşıq», 1993, s. 288; Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, s. 6; Dadaşov A. TV və radio tamaşaları. Bakı, 1999, s.78; Qafarlı Ə. Televiziya jurnalistikasının əsasları. Bakı: «Çənlibel», 2009, s. 167.

əsərləri mühüm rol oynadı və oynamaqdadır.[1] Z.Məmmədlinin hələ 1985-ci ildə yazdığı «Danışan güzgünün sirri», sonralar çap etdirdiyi «A-dan Z-yə telexəbər»[2] əsəri birbaşa peşəkarlıq problemləri ilə əlaqədardır.

20 ildə Azərbaycan telejurnalistlərinin xarici təcrübəyə yiyələnməsində İnternyus təşkilatının böyük əməyi olmuşdur.

c) **Televiziya peşəkarlığının inkişafında rəqabət mühitinin rolu**. Azərbaycan öz dövlət müstəqilliyini elan etdikdən sonra ölkədə kommersiya telekanallarının ilk nümunələri yarandı. Kommersiya kanallarının, ümumiyyətlə medianın özəl sektorunun meydana gəlməsi rəqabətə yol açdı. ANS TV yarandığı ilk illərdə ölkədə TV rəqabətdən uzaq idi. Çox keçmədi ki, «Space», «Lider», «Azad Azərbaycan» TV kanallarının meydana gəlməsi ilə «Azərbaycan teleməkanı» adlandırılan bir anlayış ortaya çıxdı».[3] 1990-cı illərin ortalarından başlayaraq özəl kanallarda ilk reklam işartıları göründü, reklam bazarı formalaşdı və bununla bazar uğrunda mübarizə başladı. Beləliklə, reklam bazarı uğrunda mübarizə, hansı kanalın daha çox auditoriyaya malik olması indi yalnız peşəkarlığın səviyyəsindən asılı idi.

ç) **Televiziya texnologiyasının sürətli inkişafının peşəkarlığa təsiri.** Ümumiyyətlə təkcə televiziyada deyil, bütövlükdə jurnalistikada yüksək texnologiyaların tətbiqi və istifadəsi XXI əsrin sosial sifarişidir. İnformasiya texnologiyaları ilk növbədə elektron informasiya vasitələrini, o cümlədən müasir televiziya sistemini daha çox ehtiva edir. İndiki teletexnika operativlik baxımından televiziyanı radio ilə eyniləşdirməkdədir. Belə bir şəraitdə «televiziya yeni yaradıcılıq standartlarına keçir».[4] Bu isə yeni peşəkarlıq tələb edir.

Televiziyanın yeni texnologiyası bir neçə cəhətdən rəqabətə yol açır: operativlik, dəqiqlik, hadisə yerindən canlı reportaja çatım, canlı yayımda etik normalara etinasızlığın texniki vasitələrlə aradan qaldırılması, peykə qoşulmaq və bununla da dünyanın efir məkanına çıxmaq imkanı qazanmaq və s. Televiziyada yeni texnologiya telejurnalistikanın telekörpü formatını asanlıqla gerçəkləşdirmək imkanı yaradır. İndi ayrı-ayrı proqram formatlarında studiya auditoriyası ilə tamaşaçı auditoriyasını birləşdirən interaktiv qoşulmalar da texnikanın yeni inkişaf prosesi ilə bağlıdır. Azərbaycan teleməkanında texniki yeniliklərin doğurduğu imkanlar ciddi rəqabət şəraiti yaratmış və bu da öz növbəsində peşəkarlığın artmasına gətirib çıxarmışdır.

---

[1] Məhərrəmli Q. Televiziya haqqında etüdlər. Bakı: Azərnəşr, 1996, s. 208.
[2] Məmmədli Z. Danışan güzgünün sirri. Bakı: «İşıq» 1985, s. 76.
[3] Azərbaycan teleməkanında yeni yaradıcılıq üfüqləri. «525-ci» qəzet, 25 fevral.
[4] Засурский А. Н. Интернет как фактор международной журналистики // Вестник МГУ, серия «Журналистика», №1, 2011, с. 8.

III fəslin ikinci yarımbölməsi **“Telejurnalistikada yeni yaradıcılıq axtarışları”** adlanır. Azərbaycan Dövlət televiziyasından başlanan və müəyyən uğurlar qazanan televiziyanın peşəkarlıq axtarışları müasir dövrdə daha intensiv xarakter almışdır. Dünya telekanallarında yaranan formatların, əyləncəli proqramların «azərbaycanlılaşdırılması» prosesi bu gün ölkəmizdə TV peşəkarlığının artmasına kömək edir. Məsələn, İngiltərə telekanallarında yaranmış «Milyonçu», Avropadan götürülmüş «Qəfəs» (Lider TV), Rusiyada formalaşmış «Что, где, когда» (Az.TV-də) və s. verilişlərdə formalaşan Azərbaycan TV aparıcıları bu sahədə peşəkar əməkdaş kimi görünməyə başladılar. ANS TV-də efirə çıxan «Toy olsun», ATV-dəki «Onun yarısı» tipli proqramlar barədə mətbuatın rəyi birmənalı olmasa da, hər halda Türkiyə televiziya kanallarındakı formatlardan mənimsənilmiş bu verilişlər özlərinə məxsus aparıcı kontingenti də yetişdirdi. ATV-dəki «Xalq ulduzu», ANS TV-dəki «De gəlsin» və s. proqramlar bir sıra özəllikləri ilə reytinq qazana bilir. Lakin Azərbaycanda televiziya peşəkarlıq axtarışlarının tarixi çox uzaq olmasa da, buna cəhdlər həmişə olub.

Azərbaycan televiziyası 1970-ci illərdən peşəkarlıq axtarışlarına başlamış və bu axtarışlar 1980-ci illərin əvvəllərində daha da genişlənmişdir. Yaradıcılıq axtarışlarının daha çox meydana gəlməsi zamanı ideologiya, sənaye, kənd təsərrüfatı və tikintiyə aid bəsit, bayağı verilişlərə «müharibə» elan edən Məmməd Murad kimi bir kadrın televiziyaya rəhbərlik məqamı ilə bağlayırlar. 1991-1992-ci illərdə efirə çıxmış «Radikal», «Asiman», «Sarı sim» və s. kimi mürəkkəb quruluşlu proqramlarda bir sıra ciddi siyasi, sosial-mədəni və mənəvi problemlərə toxunulmuşdur. M.Muradın rəhbərliyi dövründə televiziyada nəzərə çarpan çox mühüm yeniliklərdən biri də uzun müddət Azərbaycan ekranında hakimlik etmiş diktor institutunun ləğvi oldu».[1] Bu mühüm addım aparıcılıq qabiliyyəti olan istedadlı jurnalistlərin efirə çıxmasına yol açdı.

Müstəqillik illəri Azərbaycan televiziyasının həyata baxış prizmasını xeyli dəyisdirdi. Bu zaman gündəlik səhər proqramının ekranda görünməsinə böyük zərurət meydana çıxdı. Peşəkar səhər verilişi qaydalarına uyğun gələn, bu prinsiplər üzərində qurulan ilk uğurlu layihə Qulu Məhərrəmlinin rəhbərliyi ilə 1995-ci ildə efirə çıxmış «Səhər» musiqi-informasiya proqramı oldu. Özünün mozaik dramaturji strukturu ilə seçilən bu proqramlarda əhatə dairəsinə görə müxtəlif sahələri əks etdirən süjetlərin, xəbərlərin, rubrikaların maraqlı ekran həlli tamaşaçının diqqətini

[1] Əlizadə Y., Məhərrəmli Q. Azərbaycan efiri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, s. 107.

cəlb etməkdədir.

ANS-in efirində tamaşaçıları səhər ekran başına toplayacaq proqramın hazırlanma ənənəsi «Salam» proqramı ilə qoyuldu. Müxtəlif vaxtlarda özünün forma, məzmun biçimini dəyişən proqramın əhatəliliyi maraq yaratsa da, aparıcıların uğursuzluğu verilişin tezliklə kanal tərəfindən «Şirin çay» əyləncəli informasiya verilişi ilə əvəzlənməsinə səbəb olmuşdur. Siyasi, mədəni, iqtisadi, idman xəbərlərinə yer verən «Şirin çay» əyləncə və musiqi elementləri ilə səhər saatını maraqlı və baxımlı edir.

«Space» kanalında həftənin iş günləri «Sabah», şənbə və bazar günləri «Günaydın» bədii-publisistik proqramları tamaşaçılarla görüşə gəlir. «Sabah» proqramında iki saat ərzində həddən çox qonaqların gəlməsi və onlarla gündəmlə uzlaşmayan söhbətlərin aparılması tempi öldürməklə səhər efirinə lazımsız yoruculuq gətirir. «Günaydın» proqramı da yuxarıda deyilən qüsurlarla zəngindir. «Space»in inteqrativ funksiyasının icrasını öz üzərinə götürən səhər proqramlarının təkmilləşməsinə ciddi ehtiyac var idi, tədricən buna doğru addımlar atıldı.

«Lider» TV-nin səhər efiri «Tezdən oyan» və onun varisi «Sabahır xeyir, Vətən!» proqramlarıdır. «Tezdən oyan» proqramının dramaturji strukturunun qeyri-kamilliyi, konsepsiyasının bəlli olmaması və üç aparıcının özünü doğrultmayan format kimi efirə artıqlıq gətirməsi, onların lazımsız sərbəstliklə müşayiət olunan davranışları, qonaqla məntiqsiz söhbətləri kimi ciddi qüsurları üzə çıxartdı. «Sabahın xeyir, Vətən» proqramı isə daha peşəkarlıqla, zövqlə qurulan proqram idi.

İctimai televiziya tamaşaçıları maarifləndirmək və əyləndirmək kimi televiziyanın əsas funksiyalarını həyata keçirməyə çalışır. Maarifləndirmə istiqamətində bir neçə proqram hazırlanır. Musiqi və əyləncə proqramları arasında «Bir mahnının tarixçəsi», «Ustad dərsi» orijinallığı ilə seçilən verilişlər oynaq və emosional notlarda keçir. Səhər proqramı «Yeni gün» xoş təəssürat yaradır.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycan telekanalları peşəkarlığın daha vacib komponentləri üzərində düşünmək, yeni forma və formatlar axtarmaq yolunda uğurla irəliləməkdədir.

III fəslin sonuncu yarımfəsli "**Azərbaycan telejurnalistikasında peşəkarlıq inkişafına təkan verən amillər**" adlanır. Telejurnalistikanın bir sıra elə məqamları var ki, onlar artıq beynəlxalq aləmdə birmənalı qəbul edilmiş, postulatlara çevrilmişdir: 1. İnformasiyanın mənbəyini göstərmək; 2. Prioritet mövzunu obyektiv müəyyənləşdirmək; 3. Jurnalistin sosial məsuliyyəti; 4. Şərə qarşı mübarizə; 5. Qərəzsizlik; 6. Vicdanlılıq; 7. Dəqiqlik.

*İnformasiya mənbəyini göstərmək.* Azərbaycan teleməkanı informasiyanın mənbəyinə istinad işində mətbuatdan xeyli irəli gedib. Azərbaycan milli mətbuat nümunəsi olan «Əkinçi» qəzeti beynəlxalq jurnalistika təcrübəsinə söykənərək, azad iradə mətbuat nəzəriyyəsi tələblərindən çıxış etmiş və heç vaxt mənbəyi naməlum olan informasiyanı oxucuya təqdim etməmişdir. Azərbaycan mətbuatı qərəzli bolşevik mətbuatına qədər belə fəaliyyət göstərmiş, kommunist rejimi dövründə isə fakt mənbəyinə çox etinasız olmuşdur. Önəmli Qərb informasiya vasitələri isə konfidensial mənbələrə heç vaxt istinad etmir. Mənbəyi leqallaşmamış xəbər Qərb dünyasında qəbul edilmir. Azərbaycan informasiya ötürmə məkanında hələlik «Ayna», «525-ci qəzet», «Gün-səhər», «Ekspress», «Şərq» və s. qəzetlər informasiyanın mənbəyini dəqiq göstərməyi vacib sayırlar.

*Jurnalistin məsuliyyəti.* Beynəlxalq jurnalistikada informasiya və jurnalistin digər materialları təkcə xəbərləndirmək, məlumatlandırmaq deyil, habelə insanı, cəmiyyəti bu informasiya ilə istiqamətləndirmək, ictimai rəy yaratmaq rolunda da çıxış edir. Jurnalist obyektiv ictimai rəy formalaşdırmağa nail olmaq üçün məsuliyyət daşıyır. Xüsusilə sosial problemlərin yayımında diqqətli olmaq vacibdir.

*Şərə qarşı mübarizə.* Şərə qarşı mübarizədə jurnalistikanın yeri barədə mübahisələrin son dövrün faktı olması informasiyanın tərəfsizlik, qərəzsizlik kimi doktrinalarının nəzəri, praktiki inkişafından irəli gəlir. Bu təcrübənin populyarlaşması prosesi getdikcə artmaqda, möhkəmlənməkdə olsa da, bizcə cəmiyyət şərə qarşı mübarizə ənənələrinin bütün çalarları ilə dirçəlməsini yenidən tələb edəcəkdir. Çünki bu tendensiya ABŞ, Britaniya, Kanada, Rusiya və eləcə də Azərbaycan jurnalistikasında öz yerini möhkəmlətməkdədir.

*Prioritet mövzü* - bu keyfiyyət barədə də uzun müddət mübahisələr getmiş, iki fikir ayrılığı olmuşdur. Bir qisim nəzəriyyəçi KİV-in fəaliyyət göstərdiyi ölkənin prioritet xəbərini səviyyəsindən asılı olmayaraq başlığa, birinci səhifəyə, anonsa çıxarmağı məsləhət görür. Digər qisim isə dünyada baş verən ən önəmli xəbəri KİV-in harada, hansı ölkədə fəaliyyət göstərməsindən asılı olmayaraq yuxarı çıxarmağı təkid edir. Uzun müddət birinci qisim daha haqlı olmuşdur. Dünya xəbərlərinin primitiv üsulla ləng ötürüldüyü çağlarda, habelə dünya inteqrasiyasının çox zəif olduğu vaxtlarda beynəlxalq prioritet xəbər yerli oxucu üçün maraqlı olmaya bilərdi. Bugünkü dəyişən dünyada isə vəziyyət başqadır. İnformasiya ötürücü vasitələrin sürət əmsalı anlarla ölçüldüyü, dünya informasiya məkanının lokallaşdığı, iqtisadi, siyasi əlaqələrin inteqrasiya çağında dünya

prioriteti hamı üçün maraqlıdır. Ona görə də son 50 ildə beynəlxalq jurnalistika, onun örnək məktəbləri mütləq şəkildə dünya prioritetinə üstünlük verir.

*Qərəzsizlik prinsipi.* Jurnalistikada istər naşirin, istərsə də müxbirin qərəzsiz görünməsi çox çətindir. Çünki ən obyektiv fikir məqamı da kiminsə mənafeyinə zidd olur və beləəri ən obyektiv fikri də özlərinə qarşı qərəz kimi qəbul edirlər. Qərəz təkcə tənqidi fikirdə deyil, habelə təqdirdə, tərifdə də üzə çıxa bilər. Məsələn, seçkilər dövründə hər hansı bır partiyanın ünvanına, seçkidən çox uzaq bir fakt ətrafında olsa belə deyilən tərif, təqdir haqqında heç bir söz getməyən partiya üçün qıcıqlandırıcı, qısqanc materiala çevrilə bilər. Yaxud, şəxsi baxışlarını ifadə edən respondentin fikirlərini hansısa tərəf qərəz kimi qəbul edir və s. Bundan əlavə, qərəzsiz fəaliyyət həm də onu tələb edir ki, jurnalist hər hansı fakta öz münasibətini bildirməsin. Əslində bu üsul qərəzsizliyin başlıca təminatı hesab olunur. Ancaq dünya jurnalistikasının demək olar ki, bütün jurnalist və habelə naşirləri mövqe bildirməməkdən əziyyət çəkir. Çünki mövqeyin ifadə edilməməsi, adətən, materialın, proqramın təsir gücünü azaldır, amma öz mövqeyini heç vaxt bildirməyib də oxuçunun, tamasaçının inamını qazanmaq mümkündür.

*Jurnalistikanın vicdanlılıq prinsipi.* Peşənin bu cəhətinin bir çox aspektdən izah edilməsi və beynəlxalq jurnalistikada ləyaqətinə hörmət edən hər kəsin və hər bir nəşrin qəbul etməsi onu çox önəmli keyfiyyət kimi xarakterizə edir. Bu doktrina hər hansı bir obyekt, şəxsiyyət və təşkilatın ünvanına deyilmiş tənqidi fikrə görə həmin obyektlərə cavab şansı verməyi, respondentə haqqında söhbət gedəcək məsələ ətrafında ideyanın ağıllı, aydın izahını, redaktə işində, yaxud montaj prosesində fikrin təhrif olunmasının yolverilməzliyini nəzərdə tutur, müsahibin hər cümləsini kontekstdən çıxarıb başqa məqamda istifadəni, digər təşkilatlara kompramat toplamagı, nəşrin, yaxud yayımın imkanlarından istifadə edib müdafiəsiz adamları təhqir etməyi və s. halları rədd edir.

**"Nəticə"**də tədqiqatın yekunu olaraq əldə edilmiş elmi-nəzəri qənaətlər ümumiləşdirilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır**:

1. İnformasiya cəmiyyətinin yaradılmasında jurnalistikanın rolu / "Azərbaycanın müasir KİV sisteminin aktual problemləri" Professor T.Rüstəmovun 70 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, 2006, c.103-107
2. Azərbaycan: informasiya cəmiyyətinə doğru / "Azərbaycanın

müasir KİV sisteminin aktual problemləri" Professor T.Rüstəmovun 70 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın materialları. Bakı, 2006, s.108-111

3. Azərbaycanda televiziya sisteminin formalaşması və inkişaf prosesi / "Azərbaycanda jurnalistikanın aktual problemləri" Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş elmi-praktik konfransın mateialları, 3 may 2009. Bakı, 2009, s.101-103

4. AzTV-də efirə gedən verilişlərin Azərbaycan ədəbi dil normalarına uyğunluğu // Dil və ədəbiyyat jurnalı, № 2 (73), Bakı: "Ləman nəşr-poliqr.MMC", 2010, s. 321-325

5. Телевидение и современность в Азербайджане // Молодой учёный, № 7 (18), Чита: изд-во «Молодой учёный», 2010, s. 318-321

6. AzTV-də efirə gedən verlişlərin tələffüs üslubları // Filologiya məsələləri. Bakı: Elm və təhsil, 2010, № 6, s. 175-183

7. Internet-Televizion: New Broadcasting Model of the century // Copyright by Wydawnict KUL, Lublin 2011, s. 242-245

8. Azərbaycan mediaməkanında televiziyaların tipoloji sistemi // Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Ali məktəblərarası elmi məqalələr məcmuəsi. №2, Bakı: Mütərcim, 2011, s.285-289

9. Динамика развития системы азербайджанского телевидения в период независимости // Языковая картина мира и творческая личность в условиях трансграничья. Чита, ЗабГГПУ, 2011, s. 199-204

10. Azərbaycan telejurnalistikasının aktual problemləri // Nəsir İmanquliyevin 100 illik yubileyinə həsr olunmuş "Azərbaycan jurnalistikası qloballaşma dövründə: qaynaqlar və perspektivə baxış" Respublika elmi-praktik konfransının materialları, 21-22dekabr 2011, Bakı, 2011, s. 504-520

11. Общие закономерности развития системы СМИ Азербайджана и первые шаги телевидения в этой системе / Dynamics of human intelligence evolution, moral and aesthetic üorld perception and artistic creation (Materials digest of the XX İnternational Scientific and Practical Conference and the I stage of Research Analytics Championships in construction sciences, architecture, culturology and study of art, London, March 10 -March 13,2012, s. 136-139

12. Исторические тенденции развития азербайджанского телевидения Гілея: науковий вісник. Збірник наукових праць/ Гол. Ред. В.М.Вашкевич. – К.:ВІР УАН, 2013.- Випуск75 (№8).-588 с. s. 149-151

13. Новая модель на телевизионном пространстве Азербайджана / "Jurnalistikanın nəzəri konsepsiyaları və mətbuat təcrübəsi" I Beynəlxalq

elmi–nəzəri konfransın materialları, Bakı: Bakı Universiteti nəşriyyatı, 2012, s. 262-276

14. Поиск новых форм телепрограмм // Bakı Universitetinin Xəbərləri, Humanitar elmlər seriyası, № 1, 2013, s. 150-159

15. Исторические тенденции развития азербайджанского телевидения и радио // Filologiya məsələləri, № 4, Bakı: Elm və təhsil, 2013, s. 297-302

16. Тенденции развития азербайджанского телевидения // Вестник Московского Государственного Областного Университета, Серия «Общественно-культурологические и гуманитарные науки», Москва: Изд-во МГОУ, 2013, с. 193-199

17. Telejurnalistikanın yeni yaradıcılıq prinsipləri və Azərbaycan gerçəkliyi   K 73 Kitabşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. – B.: Mütərcim, 2013.-№1. 152 s. 90-99

**А.Н.Ахмедова**

# ФОРМИРОВАНИЕ И ПРОЦЕСС РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ТЕЛЕПРОСТРАНСТВА
## (взгляд на эволюцию телеситемы)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из «Введения», трех глав, «Заключения» и списка использованной литературы.

Во «Введении» обосновываются актуальность темы, научная новизна, теоретическая и практическая значимость работы; даются сведения об объекте, целях, задачах, источниках и методах исследования, об апробации и структуре диисертации.

Первая глава – «Об истории формирования и образования системы телевидения» - состоит из трех подглав. Здесь рассматриваются закономерности развития средств массовой информации, исследуется этап перехода от идеологического телевидения советского периода на социльнай институт телемодели периода независимости, динамика развития телевизионной системы в Азербайджане. Прослеживается процесс формирования и развития системы телевидения в Азербайджане. Проводится научный анализ понятия «телевизионная система», социальной среды, формирующей эту систему в Азербайджане.

Вторая глава – «Современный период развития телепространства в Азербайджане» - состоит из трех подглав. В этой главе анализу подвергается появление частного сектора средств массовой информации как основного фактора в процессе формирования телевизионной системы, роль телесистемы в формировании нормативно-правовой базы электронных средств массовой информации, современная типологическая система телевидения в Азербайджане. Здесь рассматривается статус, возможности, преимущества интернет-телевидения, дается информация об особенностях функционирования интернет-телевидения не только в Азербайджане, но и в других странах (США, Англия и др.)

Третья глава – «Вопросы развития мастерства в телепространстве Азербайджана» - состоит из трех подглав. Здесь рассматриваются современные творческие принципы тележурналистики, исследуются поиски новых эффективных форм тележурналистики, новшества в телевещании, тенденции развития профессионализма современных тележурналистов. Проводится анализ основных постулатов тележурналистики, как источник информации; выявление приоритетных вопросов; социальная ответственность журналиста; борьба со злом; беспристрастность; честность; точность.

В «Заключении» обобщаются основные результаты и выводы исследования.

**A.N.Ahmedova**

# FORMATİON AND PROCESS OF DEVELOPMENT OF AZERBAİJANİAN TV-SPACE
## (view on evolution of TV-system)

## SUMMARY

The dissertation consists of “Introduction”, three chapters,“Conclusion” and bibliography.

In “Introduction” are substantiated the urgency of the subject, the scientific novelty, theoretical and practical significance of the work; is given information about the object, purpose, tasks, sources and methods of the research, about the appraisal and structure of the dissertation.

The first chapter “About the history of formation of television system” consists of three parts in which are studied the laws of development of mass media, is traced the transition period from ideological Sovet television to social institute of TV-model of independent period, the dynamics of development of TV-system in Azerbaijan. Is traced the process of formation and development of TV-system in Azerbaijan; is analysed the notion “television system”, the social environment that forms this system in Azerbaijan.

The second chapter “The modern peroid of development of TV-space in Azerbaijan” consists of three parts. In this chapter is analysed private sector of mass media as a main factor in the process of formation of the television system; is elucidated the role of television system in formation of normative-legal base of electronic mass media, the modern typological system of television in Azerbaijan. Are considered status, potential, advantages of internet-television, is given the information about functioning of internet-television not only in Azerbaijan but also in the other countries (the USA, England and others).

The third chapter “The problems of development of skill in the television space of Azerbaijan” consists or three parts. In this chapter are considered modern creative principles of telejournalism, are studied the quest for new forms of telejournalism, innovation in telebroadcasting, tendencies of development of modern journalists’ professionalism. The main postulates of telejournalism are analysed as a source of information; are revealed the priority-driven problems: journalist’s social responsibility, struggle against evil; impartiality, honesty, exactness.

In “Conclusion” are generalized the results of the research.

AMEA-nın mətbəəsində çap olunub

Tiraj-100

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**АРЗУ НАСИМИ гызы АХМЕДОВА**

# ФОРМИРОВАНИЕ И ПРОЦЕСС РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКОГО ТЕЛЕПРОСТРАНСТВА
## (взгляд на эволюцию телеситемы)

**5720.01 – Журналистика**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ – 2017**